Solmaz Amanova

# AL BERETLİ İGİD ƏSGƏR

Vətən müharibəsindəki tarixi Zəfərə həsr olunan

**nağıl-pyes**



Bakı - 2023

Müəllif:
Solmaz Amanova

Nəşriyyat direktoru:
Ramil Rzazadə

Redaktor:
Aidə Cahangirova

Korrektor:
Ayan Mirzəyeva

Rəssam:
İskəndər Məmmədov

1-ci nəşr

ISBN
9789952543063
9789952543148

"İRS" silsiləsindən "Al beretli igid əsgər" nağıl-pyesi
"Şuşanın sehrli açarları" nağıl-pyesinin davamıdır.

© Solmaz Amanova
© "EVEREST" Nəşriyyat Evi

"Everest" Nəşriyyat Evi, Bakı, 2023, 64 səh.

"EVEREST" Nəşriyyat Evi
Tel.: +994 55 989 9009
info@everest.az - www.everest.az

"EVEREST" Nəşriyyat Evi bu kitabın Azərbaycan Respublikasının ərazisində yayımına cavabdehlik daşıyır. Bütün hüquqlar Azərbaycan Respublikasının qanunları əsasında qorunur. Kitabın çap olunması, surətinin çıxarılması və holoqramsız satışı qadağandır.

# QARABAĞ AZƏRBAYCANDIR!

*Tarixin qanlı səhifələrini vərəqləsək azərbaycanlıların 1905–1906, 1918–1920, 1948–1953-cü illərdə indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə deportasiya edildiklərinin şahidi olarıq. Təkcə 1948–1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə zorakılığa məruz qalaraq sürgün olunub.*

*Sovet dövründə rəhbərlikdə təmsil olunan ermənilər, Ermənistan SSR rəhbərliyi və xaricdəki erməni diasporu 1980-ci illərin sonunda SSRİ-nin mərkəzi hakimiyyətinin zəifliyindən istifadə edərək 1923-cü ildə Azərbaycan SSR-in tərkibində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Ermənistana birləşdirilməsi üçün məqsədyönlü hərəkətə keçirlər. 1991-ci il sentyabrın 2-də DQMV və Azərbaycan SSR-in Şaumyan (kənd) rayonu hüdudlarında qondarma "Dağlıq Qarabağ Respublikası" ("DQR") elan edildi. Aydın görünürdü ki, Ermənistan, SSRİ-nin dağılması perspektivini nəzərə alaraq, guya özünün münaqişə tərəfi olmadığını göstərmək və bununla da beynəlxalq rəyi çaşdırmaq üçün fəaliyyətini xüsusi plan üzrə reallaşdırmağa çalışır. Buna cavab tədbiri kimi 1991-ci il noyabr ayının 26-da Azərbaycan Respublikasının Ali Soveti Dağlıq Qarabağın "muxtariyyət statusu"nu ləğv etdi. Bu vaxta qədər açıq şəkildə ərazi iddiaları səsləndirən Ermənistan Respublikası Azərbaycana qarşı müharibə elan etmədən hərbi əməliyyatlara başladı. Bununla da münaqişə yeni – "qaynar mərhələ"yə keçdi.*

*Müzəffər Azərbaycan Ordusunun 44 gün davam edən mübarizəsi nəticəsində 8 Noyabr 2020-ci il tarixində Şuşa şəhəri öz həqiqi sahibinə qovuşdu. Bu tarixi qələbəyə görə Azərbaycan xalqına, Ali Baş Komandan Prezident İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusuna, öz qanları ilə şəhidlik zirvəsinə ucalan qəhrəman oğullarımıza və onları yetişdirən ata-analara eşq olsun!*

*Vətənimizin qəhrəman övladları bütün dünyaya sübut etdilər ki, biz qədim mədəniyyətə, tarixə, ədəbi irsə malik cəsarətli və müdrik bir xalqıq! Və bu xalqın uğrunda şərəf və ləyaqətlə mübarizə apardığı idealları var. Azərbaycan igidləri bu tarixi zəfərlə ümidlərimizi, arzularımızı, xəyallarımızı gerçəkləşdirdilər.*

*Uşaqlar, "Al beretli igid əsgər" nağıl-pyesi "Şuşanın sehrli açarları" nağıl-pyesinin davamıdır. Bu pyesdə də "Şuşanın sehrli açarları"nda olduğu kimi xalqımızın vətənpərvərlik ruhu, qəhrəmanlığı öz əksini tapmışdır. Siz də hər zaman irsimizi, torpaqlarımızı göz bəbəyiniz kimi qoruyun! Əsgərlərimizin qəhrəmanlığı sizə örnək olsun!*

*Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!*

*Hörmətlə,*
*Solmaz Amanova*



# AL BERETLİ İGİD ƏSGƏR

## I SƏHNƏ

Şuşa şəhərinin təməli 1752-ci ildə Pənahəli xan tərəfindən qoyulmuşdur. İlk adı Pənahabad olan bu müdafiə qalası Qarabağ xanlığını qorumaq məqsədilə tikilmişdir.

Pənahəli xan Cavanşir qədim sandığa köynək, şeşpər və Şuşa qalasının açarlarını qoyur.

### PƏNAHƏLİ XAN CAVANŞİR:

*(Açarlar otağa işıq saçır.)*

- Sandıqda var çoxlu bəzək,
Qoruyur nəzərdən köynək!
Şuşanın açarı almaz,
Düşmənə qapını açmaz!
Ustalar şeşpər yaradıb,
Onda sehr və sirr toplanıb.
Gizlədim, düşməsin ələ,
Yaraqdır gələcək nəsilə!

## II SƏHNƏ

Mənfur düşmən torpaqlarımızın 20%-ni işğal etdi. Elan olunmamış bu müharibədə iyirmi min azərbaycanlı şəhidlik zirvəsinə yüksəldi, yüz min insan yaralandı, beş min həmvətənlimiz əlil oldu. Qaçqın və məcburi köçkünlərin sayı bir milyonu keçdi.

Şuşa şəhərindən qaçqın düşənlərin arasında Abbasın ailəsi də var idi. Bu ailə Qarabağ xanlığının hakimi Pənahəli xan Cavanşirin sehrli əşyalarını qoruyurdu. Şuşada vəziyyətin gərginləşdiyini görən Abbas Bakıda yaşayan oğluna məktub yazıb sandığa qoyur və dostunun vasitəsilə ona göndərir. Özü isə Şuşa uğrunda gedən döyüşlərin birində şəhid olur.

Qarabağsız, Şuşasız kədərlə dolu 30 il keçir. Bu müddət ərzində Şuşanın açarlarını qoruyan şəhid Abbasın ailəsində körpələr dünyaya göz açır. Onlardan birinin adını babasının şərəfinə Abbas qoyurlar...

... Nəvə Abbasın yaşadığı evin böyük bir çardağı var idi. Bu çardaqda ailəsinin qaçqın düşərkən Qarabağdan gətirdiyi qədim bir sandıq saxlanılırdı. Sandıq onun atasına şəhid babasından yadigar qalmışdı.



**Ata:**

- Çıx çardağa, oğlum, Abbas,
Ordan gəlir qəribə səs.
Götür özünlə fənəri,
Nəsə yeyir döşəməni.

**Abbas:**

- Ata, hardadır nərdivan?
*(Nərdivanı tapır və çardağa çıxır.)*
Çardaqda var sandıq, qazan.
Bura bənzəyir saraya,
Böcək daraşıb parçaya.

**Nağılçı:**

- Abbas tez sandığı açdı,
Gözü işıqdan qamaşdı.
Açar, köynək, şeşpər, Quran,
Qədim paslı, köhnə naqan.
Açar Günəş kimi yandı,
Çardaq par-par işıqlandı.

**Abbas:**

- Bura sirlər xəzinəsi,
Açar, böcək, onun səsi.
Məktub gör necə saralıb,
Onu, görən kimlər yazıb?
*(Abbas atasına babasının məktubunu oxuyur və həyəcanlanır.)*

“Oğul, sənə bir sözüm var,
Dərdim ağır, havada qan,
Şuşa gedir, dözməyir can.
Bağrım olub mənim yara,
Ermənilər düşsün dara.
Bu məktubla bildirim mən,
Əldən gedir gözəl Vətən.
Sandıqda var saysız bəzək,
Nəzərdən qoruyur köynək.
Ustalar şeşpər yaradıb,
Sirlər sandıqda saxlanıb.
Oğul, düşməsin sirr dilə,
Əmanətdir nəsillərə!
Tap, Xarıbülbül-Pərini,
Açar göstərər səmtini.
Nəvəm köynəyi geyinsin,
Düşmənlərə qalib gəlsin!
Cavanşirdən miras qalıb,
Əsrlərdir sirr saxlanıb.

*(Atasından soruşur.)*

Babam yazıb sənə məktub,
Sandığı kim ora qoyub?
Böcək ora necə girib?
Sandıq Qarabağdan gəlib?

Otuz ildir Vətən həsrət,

Düşmən edir bizə lənət.

Xalqım lap əlindən bezib,

Artıq döyüş vaxtı gəlib!

**Ata:**

- Sandıq üstə qara örpək,

Ağlım getdi onu görcək.

İllər keçər, çıxmaz yaddan

Şuşa mənimçün bir dastan.

Namərd orda at oynatdı,

Gözəl Şuşam yasa batdı.

**Abbas:**

- Sən məktubu bir də oxu,

Artıq bizə yoxdur yuxu.

Bu sözlərin sirrini aç,

Gəl, tez tapaq buna əlac!

**Ata:**

- Satqınlar keçmişdi başa,

Əldən getdi gözəl Şuşa!

*(Ata məktubu oxuyur.)*

Mənə o, vəsiyyət edib,

Bu sözləri baban deyib:

"Oğul, düşməsin sirr dilə,

Əmanətdir nəsillərə!"

**Abbas:**

\- Mən topçuyam, atıcıyam,

Xüsusi təyinatlıyam.

Qarabağdır mənim yurdum!

Gedim könüllü vuruşum!

## III SƏHNƏ

*(Gecənin xeyrindən gündüzün şəri yaxşıdır. Ata oğluna öz atasından, onun zəngəzurlu qızları erməni tacirin əlindən xilas edib evlərinə gətirməsindən, daha sonra isə bu qızlardan biri ilə evlənməsindən danışdı. Abbas əsgər paltarını geyinmək istəyəndə beretini tapa bilmir. Ertəsi gün ata və oğul beret almaq üçün hərbi geyimlər satılan mağazaya getmək qərarına gəldilər. Səhər ərini və oğlunu mağazaya yola salan ana onlardan bir xahiş edir.)*

**Ana:**

\- Zənbilə siyahı qoydum,

Gül alarsan evə, oğlum.

*(Ata və oğul maşına minib mağazaya yollanırlar. Radioda "İgid əsgər, möhkəm dayan" mahnısı anons edilir: ifa edir Şəmistan Əlizamanlı, mahnının sözləri və musiqisi Şahin Musaoğlunundur.)*

**Ata:**

- Birgə gedərik döyüşə,
Çoxdan hazıram bu işə.
Ürəyimdə vardır dərdim,
Böyükdür günahım mənim.
Silahlar əldən alındı,
Millət didərgin salındı.
Atam istəmədi qaçsın,
Qərar verdi evdə qalsın.
Dedi: "Şuşa mənim anam,
Onu atmaram heç zaman".
O, qəhrəman kimi öldü,
Həyatı şam kimi söndü.
Qaçqın adı almışıq biz,
Otuz il qaldıq Vətənsiz.

**Abbas:**

- Bəs, onu harda dəfn etdin?
Məzarını bəlirlədin?

**Ata:**

- Onu Ağdamda dəfn etdim,
Məzarını bəlirlədim.

*(Abbas maşına yanacaq doldurur. Radioda Ağabəyim Ağanın "Xarıbülbül" mahnısı səslənir. Ata mahnıya qulaq asır, yumruqlarını sıxaraq öz-özünə danışmağa başlayır.)*

- Düşmənə verərik cavab,
Millət çəkib çoxlu əzab.

**Abbas:**

*(Atasını qəmli görüb deyir.)*

- Nədən belə qəzəbləndin?
Babam üçün kədərləndin?

**Ata:**

- Kədərləndim mən ifadan,
"Könlüm keçir Qarabağdan!"
Xarıbülbül doğma çiçək,
Onu istəyirəm görmək.

**Abbas:**

- Bu çiçəkdən xəbərsizəm.

**Ata:**

- O da deyir, "kimsəsizəm".
Haqqında var çox əfsanə,
Eşidən qalmır biganə.

**Nağılçı:**

- Abbas açarlara baxdı,
Onlar, sanki şəfəq saçdı.


PREMIUM
A 92
A 95

## Abbas:

\- Ata, açar parıldayır,

Günəş kimi şəfəq saçır.

Muğam sənə təsir etdi?!

Könlün Qarabağan keçdi?

Babam məktub yazıb sənə,

“Sandıq gərəkdir Vətənə!”

Bu sözləri babam deyib,

O sənə vəsiyyət edib.

“Oğul, düşməsin sirr dilə,

Əmanətdir nəsillərə!”

Açar niyə yol göstərir?

Bizə nə demək istəyir?

Danış mənə əfsanəsin

Xarıbülbül çiçəyinin.

*(Xarıbülbül Yer kürəsində yalnız Qarabağda, xüsusilə də Şuşada bitir. “Xar” sözü “tikan” mənasını verir, yəni “tikanlı bülbül”. Bu çiçəyin elmi adı “Qafqaz Qaş Səhləbi”dir. Xarıbülbüllə bağlı çoxlu əfsanə və rəvayətlər var: “Bülbül gülə aşiq olur. O, gülü sevir, cəh-cəh vurur və qoruyur. Günlərin bir günü arı bu gülü görür və onun şirəsini dadmaq istəyir. Həmin an bülbül arının gülə doğru uçduğunu görür. Tez sinəsini qabağa verib arının qarşısını kəsir. Arı bülbülü sancır, lakin bülbül ölmür, sevgisi və cəsarəti onu arı ilə birlikdə başqa bir gülə – Xarıbülbülə çevirir”.)*

**Ata:**

- Cavanşirin açarları,
Qədim, sirli əşyaları,
Oğlu İbrahimə qaldı.
Qacar şahı Babaxana,
Gəlin köçdü qızı ona.
Ağabəyim çox ağladı,
Qarabağ üçün darıxdı.
Keçdi günlər, keçdi aylar,
Yada düşdü yaşıl bağlar.
Şeir yazdı Ağabəyim,
Doldu mənim də gözlərim.

**Ağabəyim ağa:**

- Əziziyəm Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ.

**Ata:**

- Şaha çatdı tez bu xəbər,
Həsrət dolu inləmələr.
Ağabəyimi çağırdı,
Onunla çox sərt danışdı.

**Fətəli şah:**

- Burda hörmət qazanmısan,
Bu nə şeirdi yazmısan?

**Ağabəyim ağa:**

*(Ağabəyim ağa şahın qəzəbini üzərinə çəkməmək üçün deyir.)*

- Başqa şeir də yazmışam,
Çoxlu nəğmə də qoşmuşam:
"Mən aşiqəm, Qarabağ,
Şəki, Şirvan, Qarabağ.
Tehran cənnətə döndü,
Yaddan çıxdı Qarabağ".



**Fətəli şah:**

- Bax, bu şeir bəyənilsin,
Alqışlansın əməllərin.
Məndən nə istəsən dilə,
Verim sənə sevgi ilə.

**Ağabəyim ağa:**

- Evim üçün darıxıram,
Odur ki, şeir yazıram.
"Vətən bağı" sal Tehranda,
Qoy sevinsin könlüm burda.



**Ata:**

- Tehranda şah saldı bir bağ,
Heyrətləndi gələn qonaq.
Qızılgüllər, yaşıl çəmən,
Tehran bağı, sanki Vətən!
Bülbül bağda nalə çəkir,
Dərd əlindən dilə gəlir.
Gözəl Şuşa çiçəkləri,
Qarabağın inciləri
Xan qızına əlac olmur,
Vətən ahına son qoymur.

**Fətəli şah:**

- Sənə olsun bağ hədiyyə,
Məftunam bu gözəlliyə.
Dağ keçisi, maral, ceyran,
İnsan qalır bağa heyran.

**Ata:**

- Ağabəyim gəzir bağı,
Dolaşır başıaşağı.
Ürək dolu söz söyləyir,
O bir şeydən çox kövrəlir.

**Ağabəyim ağa:**

*(Ağabəyim ağa yanıqlı-yanıqlı
"Sarı bülbül" xalq mahnısını ifa edir.)*

- "Vətən bağı" al-əlvandır,
Yox içində xarı bülbül.
Ömür sürməli dövrandır,
Səsin gəlsin, sarı bülbül.

Oxu, quşlar dilə gəlsin,
Xoş nəfəsin elə gəlsin,
Yarım gülə-gülə gəlsin,
Mən çalanda sazı, bülbül.

Bülbül, sənin işin qandı,
Aşiqlər oduna yandı,
Nədən hər yerin əlvandı?
Köksün altı sarı, bülbül...

**Ata:**

- Budur,muğam hekayəsi,
Əfsanənin tarixçəsi.
Tehranda bitmədi bu gül,
Şuşa gülü, Xarıbülbül!

*(Radioda musiqi səslənir. Abbasın əlində açarlar bərq vurur. O, müğənni ilə birlikdə zümzümə edərək oxuyur.)*

**Abbas:**

- "Könlüm keçir Qarabağdan,
Gah o dağdan, gah bu dağdan,
Axşamüstü,qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi".

## IV SƏHNƏ

**Nağılçı:**

- Beret aldılar dükandan,
Söhbət etdilər savaşdan.
Sonra getdilər bazara,
Siyahıyla mal almağa.

**Abbas:**

- Açar sanki yol göstərir,
İşıq saçır, tələsdirir.

**Ata:**

- Gül-çiçək göstərir açar,
Bağlı qapıları açar!

**Nağılçı:**

- Gül dükanına girdilər,
Burda oxuyur bülbüllər.
Hər tərəfi yaşıl çəmən,
Səhləb, qızılgül, yasəmən.
Sandıq üstə durur dibçək,
İncə qönçə açıb çiçək.
Günəş kimi həmin anda,
Şölə saçdı saxsı qabda.

**Abbas:**

- Açar çəkir məni gülə!



Xarıbülbül
Gül

**Ata:**

- Çəkir Xarıbülbüllərə!

**Gül satıcısı:**

- Şuşadan atam gətirib,
Onu əllərilə əkib.
İldə o bir dəfə açır,
Günəş kimi şəfəq saçır.
Torpaq da Şuşadan gəlib,
Gül yad yeri məskən edib.
Sandıq üstə qoyduq gülü,
O gözəl Xarıbülbülü.
Nənəmdən qalıb gülməxmər,
Kəlağayı, gümüş kəmər.
Şuşa mənim Vətənimdir!
Ömürlük yaşam yerimdir!







**Abbas:**

- Biz Şuşa şəhərindənik,
Çox qəhrəman bir eldənik.
Yaddan çıxmaz o heç zaman,
Başından çəkilməz duman!
Baban, atan varmı sənin?
Səbəbi nə bu kədərin?

**Gül satıcısı:**

- Babam çoxdan vəfat edib,
Məzarı Ağdamda itib.
Cəsur olub mənim babam,
Çox oxşayır ona atam.
İki sandıqla o gəlib,
Birini dostuna verib.

**Ata:**

- O ikinci sandıq məndə,
Daşıdım onu belimdə.
Atanın adın de, görüm,
Ürəyimdə qalıb sözüm.

**Gül satıcısı:**

- Atamın adı Cavanşir,
Mənim adım isə Nadir.

**Ata:**

- Siz bizə yaxın qohumsuz,
Şuşalısız, Ağdamlısız.
Ver, telefon nömrəsini,
Çəkmişəm çox həsrətini.

**Nağılçı:**

- Aldılar Xarıbülbülü,
Cəh-cəh vuran o bülbülü.
Gözü dolmuşdu atanın,
Çünki tapmışdı qohumun.

## V SƏHNƏ



**Abbas:**

- Sənin adın İbrahimdir,
Anamsa, Ağabəyimdir.
Əfsanədir sizin adlar,
Tarix boyu daim yaşar!

**Ata:**

- Kitabları oxu, hökmən!
İrsimizi yaxşı öyrən!
Qarabağı tez qaytaraq,
Dalğalansın bizim Bayraq!

## Nağılçı:

*((Ata bütün yolu yalnız öz qohumu haqqında danışdı.)*

- Açarların gücün gördü,
Abbası heyrət bürüdü.
Tələsik evə getdilər,
Yolboyu əsgər gördülər.
Əfsanəvi marş dillərdə,
Həsrət yaşları gözlərdə.

## Əsgər marşı:

*(Musiqisi Cavanşir Quliyevin, sözləri Əli Kərimindir.)*

- Yastığımız Vətən daşı,
Yorğanımız qar olsun.
Biz bu yoldan dönər olsaq,
Namus bizə ar olsun!

*(Evə çatanda gülü anaya verirlər. O, xarıbülbülü görəndə bilmir nə etsin, gülsün, yoxsa ağlasın?..)*

## Ana:

- Vətənimin göz bəbəyi,
Cıdır düzünün bəzəyi.
Qəlbim sənin üçün ağlar,
Lay-lay oxuyar analar.
Sən Şuşanın çiçək rəmzi,
Vətənin döyünən nəbzi!

**Ata:**

*(Dostu Cavanşirə zəng etdi. Qarabağda keçən günləri xatırladılar. Müharibə başlayarsa, oğlunun Qarabağ uğrunda gedən döyüşlərdə iştirak etmək istədiyini, onunla birlikdə döyüşə gedəcəyini söylədi. Dağları, Şuşa şəharinə gedən cığırları xatırladı. Atasının sandığını da yada saldı. Onları gül mağazasına açarın işığının gətirdiyini söylədi. Abbasın əlinə düşən gül bir anda göyqurşağının bütün rənglərini əks etdirərək çiçəkləndi.)*

- Arzular tez gerçəkləşir,
Bizi sınaqlar gözləyir!
Xəbəri aç, Ağabəyim!
Dünyada nə var, eşidim.



## Xəbərlər:

*(27 sentyabr 2020-ci il tarixində Ermənistan Respublikasının Silahlı Qüvvələrinin sərhədboyu genişmiqyaslı hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başlayır.)*

## Prezident İlham Əliyev:

*(27 sentyabr 2020-ci il, saat 12:00)*

- Eşit məni, Ana Vətən!
Əl çəkmir torpaqdan düşmən.
Sülh yolunu seçmişdik biz,
Danışıqlar nəticəsiz.
Müharibə qaçılmazdır!
Allah böyükdür və haqdır!
Var olsun, şanlı Ordumuz,
Dalğalansın Bayrağımız!

## Abbas:

- Mən topçuyam, atıcıyam,
Xüsusi təyinatlıyam.
Qarabağdır mənim yurdum!
Gedim, könüllü vuruşum!
Mənim kimi çoxdur əsgər,
Ermənini qovaq, yetər!

## Ana:

- Bir gedək müharibəyə,
Aşbaz lazımdır orduya.
Düşmən tapdağında qalan,
Torpağıma canım qurban!

**Ata:**

- Sən Allaha dua elə,
Qalib qayıdaq, zəfərlə
Müharibədən biz çıxaq,
Qarabağda Bayraq sancaq!

**Ana:**

*(Abbasa söyləyir.)*

- Cavanşirdən qalıb köynək,
O olacaq sənə kömək.
Qarabağın gücü onda,
Qoruyar səni davada!

**Nağılçı:**

- Sübhədək yatmayıb ana,
Göz yaşları töküb ana,
Hazırlayıb o bişmələr,
Yada düşdü xatirələr.
Abbas tez çardağa çıxdı,
Tələsik sandığı açdı.
Açar, köynək, şeşpər, Quran,
Qədim paslı, köhnə naqan.
Açar birdən parıldadı,
Günəş kimi şölə saçdı.
Məktubu bir də oxudu
Elə orda yatıb qaldı.

## Televiziya xəbərləri:

*(Qardaş ölkə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edərək Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu vurğulayıb.)*

## Nağılçı:

*(Abbasın yuxusu)*

- Şimşək göydə işıq saçdı,
Böcək birdən qanad açdı.

## Böcək:

- Abbas, vardır yeni icad,
"Dron" qoyublar ona ad.
Dronu göyə uçururlar,
Düşmən bağrın çatladırlar.
Böyük gücə malikdir dron,
Müharibəyə qoyar son.
Şeşpərlə sən ona toxun,
Məhv edəcək xeyli qoşun.
Səmalarda o uçacaq,
Erməninin tez vuracaq!
Yer altına silah yığıb,
Düşmən bizə tələ qurub.



Torpaqları minalayıb,
Qarabağı viran qoyub.
Sən şeşpəri qaldır göyə,
İşıq salar dağ, dərəyə.
Arıların qoşunları
Oyadacaq oğuzları.
Canavarlar dəstə-dəstə
Gələcək, onları səslə!
Xarıbülbül çiçəkləri,
Şaqraq səsli bülbülləri,
Yarar düşmən cəbhəsini.
Sən ver "İrəli!" əmrini.
Özünlə naqanı apar,
Döyüşdə lazımın olar.
Qarabağı sən et xilas,
Al düşməndən qisas, Abbas!

**Nağılçı:**

*(Abbasın yuxusu)*

- Çardaqda yığılıb məclis,
Quşlar, atlar tamam səssiz.
Məğrur durub Xarıbülbül,
Silahdaşı sarı bülbül.
Ana Arı və arılar,
Ağ xalatda göyərçinlər,



Qara böcək, dostu Abbas
Sakit keçir böyük iclas.
Al beretli çoxlu əsgər,
Qanlı savaşa gedirlər.
Açar işıq saçır yola,
Yol göstərir o, quşlara.
Abbas dronu işə salır,
Böcək və dron göyə qalxır.

**Bülbül:**

- Yığışın, meşəyə quşlar!
Atlar, bülbüllər, arılar!

**Kirpi:**

- Şuşaya üz tutub ilan,
Yuvalarda vermir aman.

**Köstəbək:**

- Yeraltı tunel qazıbdır,
Düşmən yolunu azıbdır.

**Bulaq:**

- Dovşan, kirpi, qartal, arı,
Şahin, bülbül, bir də ayı.
Yığışsınlar tez meşəyə,
Canlı sudan götürməyə.

**Xarıbülbül-Pəri:**

- Şuşanın qızıl açarı,
Açar bizə qapıları.

Yanında var Qara qaya,
Su tökülür ordan çaya,
Qızıl balıq üzür orda,
Xarıbülbül bitir bağda.
Su diriləər ölənləri,
Dərdə çarə gəzənləri.

**Nağılçı:**

- Gözlərini açdı Abbas,
Gözdən itdi birdən iclas.
Göy gurultusu və şimşək,
Əlində oturub böcək.
Onun üçün tapdı qutu,
Yada düşdü yenə yuxu.
Alıb əlinə Quranı,
And içərək öpdü onu.
Cavanşirin yadigarı
Qədim şeşpəri götürdü.
Birdən oyuncağın gördü,
Uşaq kimi çox sevindi.

**Abbas:**

- Allah, gözəl yuxu gördüm,
Dronu özümlə götürüm.

## VI SƏHNƏ

**Nağılçı:**

*(Səhər açılan kimi ata və oğul hərbi hissəyə getdilər.)*

- Ölkədə tam səfərbərlik!
"Müharibəyə gedirik!"
Söyləyirdi cavan, qoca.
Əmr etdi Mayor: "Ardımca!
Xüsusi təyinatlılar,
Topçular və atıcılar,
Sizə böyük ehtiyac var,
Gedir ilk öncə cavanlar.
Bizə arxalanır Vətən,
Keçirik hücuma sübhdən!
Qaçqınımız var bir milyon,
Buna qoyulmalıdır son!"

**Abbas:**

- Xüsusi təyinatlıyam,
Mən topçuyam, atıcıyam.
Qarabağdır, mənim yurdum!
Düşməni ordan mən qovum!

**Ata:**

- Qarabağa vardır borcum!
Ordadır əcdadlarımız,
Bizim əzəl diyarımız!
Ocağına canım qurban,
Əziz, doğma Azərbaycan!
Meşələrin gizlin yolun
Hər kəsdən çox tanıyıram,
Mən yaxşı kəşfiyyatçıyam.



**Nağılçı:**

- Ön cəbhəyədir təyinat,
Ataya vardır tələbat.

**Ata:**

*(Oğlu ilə vidalaşır.)*

- Oğlum, özünə yaxşı bax!
Bizi gözləyir Qarabağ!

**Abbas:**

- Sənə hər gün zəng edəcəm.

**Mayor:**

- Hər kəsə bunu deyirəm,
Zəng etməyin telefonla,
Düşmən tutar asanlıqla.
İnterneti işlətməyin,
Yerinizi bildirməyin.

**Nağılçı:**

- Davaya gedir eşelon,
Dalda qalır şəhər, rayon.

**Abbas:**

- Yedizdirim mən böcəyi,
Görəsən, yeyər çörəyi?
Birdən o çörəkdən doymaz,
Meyvə verim ona bir az.

**Əsgər:**

*(Abbasın yanında oturur.)*

- Sən ona ver bu almadan,
Özüm dərmişəm ağacdan.

Onu evdən aparırsan?

Yoxsa kimdənsə almısan?

**Abbas:**

- Gərgədan böcək - talisman,

Qalıbdır mənə babamdan.

**Əsgər:**

- Məndə də var bir talisman,

Qalıb mənə o, atamdan.

Onda ifa edir çoban,

Qalır adam ona heyran.

**Abbas:**

- Tütəkdir yəqin ki, adı,

Böcək tərpədir qanadı.

**Əsgər:**

- Onu görüb o çantada,

Almanı mən çıxaranda.

Mənim yurdum qədim Bərdə,

Yaşayıram gözəl kənddə.

Sənin evin haradadır?



**Abbas:**

- Mənim evim Bakıdadır.
Əslim isə Qarabağdan,
Atam-babam da Şuşadan.
Qarabağçün yanır ürək,
Ermənini gərək əzək!

**Əsgər:**

- Yerliyik biz, mən - Xudayar!
Görmüsən filmi: "Bəxtiyar?"

**Abbas:**

- Rəşid dahi sənətkardı,
O, filmdə baş roldadı.

**Xudayar:**

- Sərhəd qoşunlarında mən,
Mahnı oxuyuram hərdən!

**Abbas:**

- Gəl dost olaq, əziz yoldaş!

**Xudayar:**

- Qarabağa çatdıq, qardaş!

## VII SƏHNƏ

**Xəbərlər:**

*(2020-ci il sentyabrın 27-də səhər saat 06:00 radələrində Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumundan sonra Murovdağ silsiləsində yerləşən Murov zirvəsinin işğaldan azad edilməsi üçün hərbi əməliyyatlar həyata keçirilmişdir. II Qarabağ müharibəsi zamanı Murovdağ döyüşləri ən şiddətli və strateji baxımdan çox önəmli döyüşlərdən biri kimi qiymətləndirilir. Murovdağ döyüşlərində Azərbaycan Ordusunun 150-dən çox hərbi qulluqçusu şəhid olub. Döyüş əməliyyatları davam edir.)*

**Abbas:**

*(Atası ilə görüş zamanı söhbət edir.)*

- Murovdağdan yeni gəldik
Biz yüz əlli şəhid verdik!
On səkkiz yaşında Rəhman,
Hər an anır onu Salyan.
Polad Həşimov, Mübariz,
Gör nə çoxdur şəhidimiz!

**Ata:**

- Pozulubdur sakitliyi,
Ağ örpəkli dağlarımın.
Üstünə mərmilər uçur,
O laləzar bağlarımın.
Susub Şuşa bülbülləri,
Düşmən açıb ora ayaq.
Gərək məhv edək yağını,
Biz zirvəyə sancaq bayraq.
Övladları pərən-pərən,
Çatılmayıb daha ocaq.
Böyük, kiçik ümid edir,
Qələbə günü olacaq!

**Abbas:**

- Qaldım açara məəttəl,
Heç qoymur o mənə məhəl.
İşıq saçır xəritəyə,
Düşmən düşür vahiməyə.
Şeşpər dronu işə salır,
Böcək və dron göyə qalxır.
Böcək ona yol göstərir,
Dəqiq zərbə dron endirir.
Kökün kəsir alçaqların,
Düşmən olur darmadağın.



**Ata:**

- "Bayraktar" adına sahib,
Ona yox silahda rəqib.
Hədəfi məhv edir tez dron,
Sən ad qazandın "Çempion!"
Sirri bildirmə heç kəsə,
Açar, şeşpər düşər səsə.
Hərbi taktikanın sirri,
Qoruyur hələ ki bizi.
Baban bunu dəqiq bilib,
Sandığı əmanət edib.



**Abbas:**

- Qəribə bir yuxu gördüm:
“Şuşanın sirli açarı,
Göstərir bizə qapını.
Yanında var Qara qaya,
Su tökülür ordan çaya.
Qızıl balıq üzür orda,
Xarıbülbül bitir bağda.
Orda gördüm mələkləri,
Yerdə yatan əsgərləri.
Mələklərin əlində su,
Çox maraqlı idi yuxu.
Görəsən, varmı belə yer?
Edərdim oranı mən seyr!”



**Ata:**

- Yaxşı ki, mən səni tapdım,
Bura gəldim addım-addım.
Yeri minalayıb düşmən,
Çıxardıram onları mən.
Sənin yuxun sanki nağıl,
Böcək, açar “əsil qızıl”.

**Abbas:**

- Var olsun, şanlı ordumuz!
Dalğalansın Bayrağımız!

Türkiyə, İsrail, Pakistan

Yanımızdadır hər zaman.

Olmuşuq biz "Dəmir yumruq",

Çox önəmlidir bu dostluq!

**Ata:**

- Hiyləgər erməni qaçır,

Silah-sursatını atır.

Atəş açır dinc Gəncəyə,

Tərtər, Göygöl və Bərdəyə.

Çox uşaq qalıb anasız,

Analar qalıb övladsız.

Qərənfillər məzarlarda,

Döyüş gedir Qarabağda!

**Abbas:**

- Ata, indi sakitlikdir,

Bir oğlan var, müğənnidir.

Dostumdur, adı Xudayar!

Qulaq assan, qəlbin ağlar.

*(Fasilə zamanı Xudayar Əliağa Vahidin sözlərinə bəstələnmiş "Vətən yaxşıdır" mahnısını ifa edir.)*

- "Dumanlı dağların başında durdum,

Dumandan özümə bir xeymə qurdum.

Dumanlı dağların başında durdum,

Dumandan özümə bir xeymə qurdum.

Keçdi xəyalımdan öz gözəl yurdum,

Dumanlar başında duman göründü,

Duman göründü...

Keçdi xəyalımdan öz gözəl yurdum,

Dumanlar başında duman göründü,

Duman göründü..."

**Ata:**

- Xudayar, sən xanəndəsən!

Bu ifada bir dənəsən!

**Əsgər:**

*(Babək Ələkbərov Xudafərin körpüsünə bayrağımızı sancaraq bu şeiri söyləyib.)*

- Çay üstündə şimşək çaxıb,

Bir ocağı bölüb yarı.

Mübarizə meydanına,

Çevirib ulu diyarı.

Müharibə gedir bu gün

Araz bürünüb dumana.



Qarabağ "Azərbaycan", - deyir,
Vətən dərdi çəkir ana.

Göz yaşları - sevinc yaşı,
"Dəmir yumruq" olub Vətən.
Yaddan çıxmaz qan yaddaşı
Qarabağdan qaçır düşmən.

Cəbrayılda igid əsgər,
Sancdı körpümüzə bayraq.
Necə gözəl aydır Səfər
Bərəkəti qucaq-qucaq.

Yada salaq biz keçmişi,
Şeyx Heydərin oğluydu şah.
Səfəvilər sülaləsi
Əldə tutub daim silah.

Azərbaycan qədim diyar,
Hökmdarı Şah İsmayıl.
Araz axır qəmli-qəmli,
Göyə qalxıb Vətən səsi.

Qarabağın gözü yolda,
Mənfur düşmən aldı zərbə.
Xudafərin körpüsündə,
Əsgərlər deyir: "Qələbə!"



Liderimiz Ulu öndər,
Ruhu görür Qarabağı.
Oğlu qovub düşmənləri,
Yaradacaq "Cənnət bağı!"

Araz çayı dağdan axır,
Yuyur əllərini İlham.
Güney Azərbaycan baxır,
Deyir: "Azərbaycan, salam!"



**Nağılçı:**

- Döyüşdə tez keçir günlər,
Şəhid oldu çox igidlər.
Xanəndəmiz həlak oldu,
"Dumanda bir xeymə qurdu".
Dağlara qalxırdı Abbas,
Şuşanı etməyə xilas!

**Abbas:**

- Əsgər dostlarım, "İrəli!"
Düşmən görməsin bizləri.



## VIII SƏHNƏ

**Xəbərlər:**

**Azərbaycan Respublikasının Prezidenti İLHAM ƏLİYEV:**

*(“Mən xoşbəxt insanam ki, atamın vəsiyyətini yerinə yetirmişəm. Şuşanı azad etdik! Bu böyük qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şad oldu! Təbriklər, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları! Bu gün bəlkə də, həyatımdakı ən xoşbəxt günlərdən biridir, çünki belə bir tarixi gündə bu sevincli xəbəri Azərbaycan xalqına çatdırmaq mənə qismət oldu! Qarabağ Azərbaycandır!”)*

*Azərbaycan Respublikasında 8 Noyabr Zəfər Günü kimi qeyd olunur. Xalqımız bu bayramı hər zaman təntənəli şəkildə qeyd edəcək.*

**İbrahim:**

*(Evə zəng edir.)*

- Qarabağ işğaldan azad,
Qəhrəmandır bizim övlad!



**Ağabəyim:**

- Əziz Vətən, canım Vətən!
“Dəmir yumruq” olub sinən.
Göz yaşları - sevinc yaşı,
Yaddan çıxmaz qan yaddaşı.
Hanı Abbas, zəng etmir o?
Eşidilmir səsin, alo?!

**İbrahim:**

- Alo?! Bu gün də Şuşada,
Hava tutqundur, dumandır!
Zəng edərəm mən birazdan,
Sizdən qalmışam nigaran!

*(Birdən böcəyin vızıltısını eşidir.)*

**Böcək:**

- Ju-Şuşa, ju-Şuşa, ju, ju...

**Nağılçı:**

- Tələsik gərgədan uçdu!

**İbrahim:**

- Gərgədan böcək - talisman,
Qalıbdır mənə atamdan.
Mənə böcək yol göstərir,
Nə isə demək istəyir.

**Nağılçı:**

- Şimşək göyə işıq saçdı,
Ata sanki qanad açdı.

**Böcək:**

- Ju, ju, ju... gözləyir Abbas
Tez ol, onu sən et xilas!

**İbrahim:**

- Dil bilir, danışır böcək
Bu yuxudur, yoxsa gerçək?!

**Nağılçı:**

- Dağ, meşəylə qaçır ata,
Yetişmək üçün oğluna.

**İbrahim:**

- Oğlum, Abbas, hardasan sən?
Nigaran qalmışam səndən.



**Nağılçı:**

- Mələyin çiynində əsgər,
Gözlərində dərin kədər.
Göydən bulud enir yerə,
Sudan verir mələklərə.
Ağ xalatlı göyərçinlər,
Torpaq üstə qərənfillər.
Şuşanın sirli açarı,
Göstərir bizə qapını.
Yanında var Qara qaya,
Su tökülür ordan çaya,
Qızıl balıq üzür orda,
Xarıbülbül bitir bağda.
Ata gördü öz oğlunu,
Yada saldı arzusunu.

**Ata:**

*(Yavaşca oğlunun sözlərini təkrarlayır.)*

- "Mələklərin əlində su,
Çox maraqlıdır bu yuxu!
Görəsən, varmı belə yer?
Edərdim mən oranı seyr!"

**Nağılçı:**

*(Ata oğlunun şəhid olduğuna inanmır, axı onun əynində sehrli köynək var idi.)*

- İşıq sönmüşdü gözündə,
Yox idi nəfəs bədəndə.

Abbasın əlində naqan,
Ata yapışdı qolundan.
Üzbəüz durub erməni...

**Karen:**

*(Tacir Karenin nəvəsi Karen Şuşanın sehrli açarlarını Abbasdan alıb lovğalana-lovğalana İbrahimə deyir.)*

- Axmaq, öldürəcəm səni!
Yerə qoy tez dizlərini.
Sehrli açarlar məndə,
Ömürlük qalın zillətdə!

**İbrahim:**

- Qarabağ yenə bizimdir!
Millətiniz çox xaindir.
Qarabağ bədəndə candır,
Qarabağ Azərbaycandır!

**Nağılçı:**

- Heyvanlar, quşlar axışdı,
Ətrafa səs-küy yayıldı.
İbrahim düşməni vurdu,
Karen dönüb ilan oldu.
Köməyə gəldi bülbüllər,
Qartallar, həm də şahinlər.



Böcək çırpdı özün yerə,

Yarandı qorxunc mənzərə.

Böcək səmaya yüksəldi,

Onu buynuyzuyla əzdi.

Yer açıldı, çaxdı şimşək,

Dağda açdı incə çiçək.

İlan yandı, döndü külə,

Hər tərəfdə açdı lalə.

Böcək tapdı açarları,

Açdı sirli qapıları.

Ordan çıxdı Xarıbülbül,

Cəh-cəh vurdu sarıbülbül.

**İbrahim:**

*(Oğlunu qucaqlayıb saçlarını sığallayır. Çingiz Mustafayevin ifasında "Ana mən şəhid oldum" mahnısı səslənir. Mələklər əsgərləri çiyinlərində cənnətə aparırlar.)*

- Şəhid zirvəsinə qalxdın!

Gerçək oldu arzuların!



*(Sakit səslə oğlunun sözlərini təkrarlayır.)*

"Mələklərin əlində su,
Çox maraqlıdır bu yuxu.
Görəsən, varmı belə yer?
Edərdim mən oranı seyr!"

**Xarıbülbül-Pəri:**

- Mələklər, gətirin suyu!
Qara qayadadır quyu.
Qorudu Abbası köynək,
Birdə yaxın dostu böcək.

**Nağılçı:**

- Mələk yudu onun üzün,
Abbas açdı birdən gözün.

**İbrahim:**

- Sel kimi göz yaşı tökdüm,
Dur ayağa, mənim oğlum!

**Abbas:**

- Deyəsən, minaya düşdüm,
Bircə anlıq çox üşüdüm.
Xəyalımda Xarıbülbül,
İsitdi məni parlaq gül.
Kömək etdi mənə dostum,
Əziz böcək, səni öpüm.

*(Böcəyi qucaqlayıb öpür.)*





**Nağılçı:**

- Yaddan çıxmır müharibə.

**İbrahim:**

- Bizimdir Şuşa, Qələbə!
Erməni tam oldu məğlub!
Qarabağdan o qovulub!
Evə gedək, budur açar!
Yolumuza işıq saçar!

**Nağılçı:**

*("Qarabağ şikəstəsi" səslənir.)*

- Qayıtmışıq, əziz Şuşa!
Bundan sonra daim yaşa!
Hekayəmiz burda bitdi,
Bülbül yenə dilə gəldi!


Şuşa